# Onun sazlı-sözlü dünyası



Şöhrət müəllim gözünü dünyaya açandan evlərində saz görmüş, atası Aşıq Cəlalın ecazkar barmaqlarının hikmətindən yaranan saz havalarının - «Dilqəmi»nin, «Kərəmi»nin, «Ruhani»nin, «Sarıtel»in, «Dübeyti»nin, «Zarıncı»nın, «Yurd yeri»nin, «İncəgülü»nün sehrinə, ovsununa düşmüşdür. Sazla yatıb, sazla oyanmışdır. Sənətin sirlərini atasından görüb götürmüşdür. Şifahi xalq ədəbiyyatından, folklordan, ustad aşıqlardan bəhrələnmişdir.

Atası rəhmətlik Cəlal Qəhrəmanov Azərbaycanın görkəmli sənətkarlarından olub. Aşıq Avdı məktəbinin ən layiqli davamçısı kimi klassik aşıqların səviyyəsinə yüksəlmişdir. İfasında bir çox saz havaları radio və televiziyanın fondunda saxlanılır. 1992-ci ildə Aşıq Cəlalın «Sədəfli saz, məni dindir» şerlər kitabı çapdan çıxmışdır. Ustad sənətkar Cəlal Qəhrəmanovun bənzərsiz çalğısı, məlahətli səsi, şirin ləmsi aşıq həvəskarlarının yaddaşında bu gün də yaşayır.

Şöhrət Cəlal bədii yaradıcılığa ötən əsrin 70-80-ci illərində şerlə başlamışdır. O vaxtdan respublika mətbuatında öz maraqlı yazıları, şerləri ilə müntəzəm çıxış edir. İngilis dilində şerlər və hekayələr yazır. Orijinaldan tərcümələr edir. Onun folklorumuzla, el şairləri və aşıqlarımızla bağlı mətbuatda yazıları dərc olunmuşdur. Ş.Cəlal 1998-ci ildə İncə dərəsi yazarlarına məxsus poeziya nümunələrini toplayaraq «Mən aşıq İncədənəm» şerlər toplusunu çap etdirmişdir.

Şöhrət Cəlalın «Bizim ellər yerindədir», «Yurd yerində axtar məni» şerlər kitabları çapdan çıxmışdır. Doğma yurda bağlılıq, torpaq sevgisi, vətən eşqi, el-obaya məhəbbət Ş.Cəlal şerlərinin əsas qayəsini təşkil edir. Şöhrət Cəlal öz elindən-obasından ilham almış söz sərrafıdır. Sözləri yerində işlətməyi, incələyib misralara düzməyi bacarır. Bir-birindən mənalı-məzmunlu divaniləri, təcnisləri, qoşmaları, gəraylıları, müxəmməsləri oxunaqlı və yadda qalandır.

*Şöhrət Cəlal 1954-cü ildə Oğuz yurdu, sazın, sözün beşiyi, şerin-sənətin, şairlərin, aşıqların vətəni Qazax mahalının İncə dərəsində - Kəmərli kəndində anadan olub. 1976-cı ildə Azərbaycan Dillər Universitetinin ingilis dili şöbəsini bitirmişdir. Ali təhsilli ingilis dili müəllimidir.*

Şöhrət Cəlalın təbiəti təbiətdən, eşqi ülviyyətdən gəlib, şairliyi, aşıqlığı Allah tərəfindən verilib. Vətənə, elə-obaya möhkəm tellərlə bağlı olduğundan onun sazı həmişə «Yurd yeri»nə köklənir.

*İnan bir qaladır İncə,*
*Sazı-sözü ürəyincə,*
*Cəngisi döyüşdən öncə,*
*Bizim ellər yerindədir!*

Bəli İncə dərəsi öz yerindədir! İncəlilər sərhəddə möhkəm dayanıblar. Ermənilər igid oğullarımızın əlinin tamını yaxşı bilirlər. Aşıq Şöhrət ərənlərimizi sazla-sözlə ruhlandırır, onları «Cəngi»yə səsləyir.

*Şəfa üçün təbib gərək,*
*Vətən adlı dərmanı var könlümün!*

Şerlərindən bəlli olur ki, Şöhrət müəllim həqiqətən də vətənpərvər şairdir. Torpağının hər qarışını sevir, elinə-obasına ürəkdən bağlıdır.

«Saz dinəndə mənim könlüm sazlanır!» - deyir Şöhrət Cəlal. Aşıq sənətini müqəddəs sayır, onu həmişə hörmətli və urvatlı tutur.

Ş.Cəlalın gəncləri vətənpərvərliyə, mübarizliyə, döyüşə səsləyən çoxlu sayda şerləri vardır. O eyni zamanda aşıq sənətini, folkloru, dastanlarımızı yaxşı bilir.

Şöhrət Cəlal folklor-tədqiqatçısı, şair-tərcüməçi, ozan-aşıqdır. Maarif, mədəniyyət, ədəbiyyat və incəsənət fədaisidir.

1984-cü ildə Gəncədə keçirilmiş Türkdilli Xalqların III Ümumittifaq Dastan Müsabiqəsinin qalibidir.

Şöhrət Cəlal Azərbaycan Yazıçılar, Respublika Jurnalistlər və Aşıqlar Birliklərinin üzvüdür.

1997-ci ildə «İngilis danışıq dilinin texnikası» mövzusunda keçirilmiş seminarda Böyük Britaniya Şurasının sertifikatına layiq görülmüşdür.

Aşıq sənətinin xiridarı, sinəsi sazlı-sözlü Şöhrət Cəlal Qazax rayonunda çıxan «Göyəzən» qəzetinin nəzdində fəaliyyət göstərən «İlham» ədəbi birliyinə rəhbərlik edir. İstedadlı gənclərin üzə çıxarılmasında öz köməyini əsirgəmir. Azərbaycan Yazıçılar Birliyinin Qazax zona şöbəsinin keçirdiyi (ədəbi) tədbirlərdə yaxından iştirak edir.

Şair-jurnalist, ozan-aşıq Şöhrət Cəlal həyatının, yaradıcılığının kamillik, barlı-bəhrəli çağlarını yaşayır. Qələmi əlindən, sözü dilindən, sazı sinəsindən əskik olmasın Şöhrət Cəlalın! İlhamı, eşqi, həvəsi çeşmə kimi, çaylar kimi coşub çağlasın!

**Kazım KAZIMLI**
Qazax rayonu